# AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ YERLİ İDARƏETMƏDƏ İŞTİRAKINA DAİR TOPLU

**Bakı - 2012**

Bu toplu ABŞ Milli Demokratiya İnstitutu (MDİ) və ATƏT-in Bakı ofisinin dəstəyi ilə həyata keçirilən "Vətəndaşların Yerli İcmaların İnkişafında İştirakı və Milli Səviyyəli Qərarqəbuletmə Prosesinə Cəlb Edilməsi" layihəsi çərçivəsində nəşr edilib. Topludaki fikirlər ABŞ MDİ və ATƏT-in mövqeyini əks etdirmir.

**© Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi**

# Mündəricat

**I. Giriş....4**

**II. Yerli idarəetməni həyata keçirən orqanlar və onların səlahiyyətləri....6**

Yerli İcra Hakimiyyətləri....6

Bələdiyyələr....8

**III. Vətəndaşların yerli problemlərin həlli ilə bağlı iştirakı....11**

Müraciət qaydaları....11

Deputata necə müraciət etmək olar?....13

İmzatoplama kampaniyası....14

Vətəndaşların yerli idarəetmədə birbaşa iştirakı....14

İnformasiya əldə etmək hüququ....16

İctimai vəkillik....17

**IV. Əsas yerli problemlərin həlli yolları....19**

Elektrik enerjisinin verilişində fasilələr....19

Bankomatların az olması vətəndaşların sosial müavinətləri vaxtında əldə etməsinə maneəçilik yaradır....19

Gənclərin asudə vaxtının səmərəli keçirilməsinə şəraitin olmaması....19

İctimai nəqliyyat problemi....19

Sosial yardımların alınmasında yaranan çətinliklər....20

Məişət tullantılarının vaxtlı-vaxtında yığılmaması....21

Kanalizasiya sisteminin olmaması....21

Yolların bərbad vəziyyətdə olması....22

Yaşayış binalarının istilik və qazla təmin olunmaması....22

**V. Əlavələr....23**

Şikayət forması....23

İmza vərəqəsi forması....25

İnformasiya sorğusu forması....26

# I. GİRİŞ

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) hazırladığı və "Vətəndaşların yerli icmaların inkişafında iştirakı və milli səviyyəli qərarqəbuletmə prosesinə cəlb edilməsi" layihəsinin iştirakçıları üçün nəzərdə tutulan bu toplu ölkə vətəndaşlarının yerli idarəetmədə iştirakı ilə bağlı bilik və bacarıqlarının artılması üçün metodik vəsait kimi nəzərdə tutulub. Ancaq bu topludan ölkəmizdə ictimai-siyasi fəaliyyətlə məşğul olan vətəndaşlarla yanaşı gündəlik qayğıları ilə yaşayaraq, müxtəlif yerli problemlərlə üzləşən şəxslər də faydalana bilər.

SMDT-nin ekspertlərinin hazırladığı və müxtəlif bölgələrdə keçirləcək təlimlər üçün nəşr edilərək çoxaldılacaq bu toplunun yayılmasının bir neçə səbəbi vardır:

Birinci səbəb ölkə həyatının bir sıra sahələrində olduğu kimi vətəndaş cəmiyyəti və demokratik idarəçilik üzrə məlumatlandırma yönündə də mövcud olan ***informasiya qıtlığının aradan qalıdırılmasına*** yardım etməkdir. Bu sahədə informasiya qıtlığı müxtəlif vətəndaş və vətəndaş qruplarının ictimai maraqlar naminə birləşib təşkilatlanmasından tutmuş fəal çalışmalar göstərməsinədək çeşidli formalarda özünü biruzə verir. Azərbaycan vətəndaşı bəzən özündən savayı xeyli sayda insanın da narahat olduğu ictimai maneələri dəf etmək üçün gündəlik qayğılarından savayı ictimai fəaliyyətə də yer ayırmaq zərurəti ilə üzləşir. Bu zaman "nə etməli" və "nədən başlamalı" tipli suallara cavab vermək üçün axtarışda olmaq, çoxsaylı informasiya mənbələrini aramaq və bilgilər əldə etməyə ehtiyac yaranır. Ancaq təəssüf ki, vətəndaşların idarəetmədə iştirakı barədə elmi-kütləvi ədəbiyyat, metodik vəsaitlər və hüquqi nəşrlər hazırda ya yüksək tirajla deyil, ya da bu cür informasiya mənbələrinə çıxış imkanları hamı üşün əlçatan olmur.

Müşahidə olunan ikinci səbəb ictimai-siyasi hərakatda bu və ya digər səviyyədə fəal olan şəxslərin ictimai maraqlar naminə gərgin və xeyirxah fəaliyyətinin bəzi hallarda ***metodoloji-texniki bilgilərlə*** müşayiət olunmamasıdır. Bu zaman vətəndaş qrupları fəallarının gərgin zəhmət bahasına nümayiş etdirilən fəaliyyətinin ciddi uğurları nəzərə çarpmır. Müxtəlif ictimai yüklü problemlərin və insan hüquq və azadlıqlarının pozulması hallarının qarşısının alınması məqsədilə qüvvədə olan qanunları əldə etmək və hüquqi bilgilərlə "silahlanmaq" bəzən uğurlar üçün yetmir. Çünki, cəmiyyətin və dövlətin idarəolunmasında vətəndaş içtirakı təkcə qanunlarla deyil, həm də müasir demokratiyanın ərsəyə gətirdiyi ənənəvi vərdişlər və texnologiyalarla təmin olunur. Yəni, vətəndaşların cəmiyyətdəki problemlərin həlli naminə idarətəmədə fəal iştirakı o zaman nəticə verir ki, bu yöndə ictimai rəyin formalaşdırılması, dövlət və ya siyasi hakimiyyət orqanlarının, habelə siyasi partiyaların qərarlarına təsir edə biləcək mexanizmlərdən istifadə olunsun. Bu mexanizmlər isə yalnız Azərbaycan Respublikası Milli Məclisinin ratifikasiya və ya qəbul etdiyi qanunlardan ibarət olmur, bu qanunların icrası və ya təkmilləşdirilməsi üçün ictimai vəkillik, ictimai müzakirələr, imzatoplama hərəkatları, ali dövlət instansiyalarına şikayət və müraciətlərin göndərilmsi lazım olur!

Bu kitabın ərsəyə gəlməsini zəruri edən digər səbəb hazırda yerli idarəetmədə vətəndaş iştirakı anlayışına qarşı müşahidə olunan ***etinasızlıqdır.*** Bu isə əksər hallarda ictimai maraqlar naminə vətəndaş birliklərinin ya dinamik inkişafına, ya da ümumiyyətlə, yaranmasına mənfi təsir edir. Hazırda, ölkədə vətəndaş cəmiyyətinin, hüquqi dövlət və demokratik cəmiyyət ideyalarının dərinləşib daha da inkişaf etməsi baxımından vətəndaş passivliyi ciddi narahatlıq doğurur. Təəsüf ki, hələ də bəzi ölkə vətəndaşları yerli icra hakimiyyətləri, bələdiyyələr və digər dövlət institutlarının keyfiyyətli, səmərəli, hesabatlı və şəffaf fəaliyyətinə yalnız ümid edirlər. Həmçinin, çox təəsüf ki, həmin vətəndaşlarımız arzuların

gerçəkləşməsini yalnız dövlət rəsmiləri və məmurlarının, siyasi partiyaların, Kütləvi İnformasiya Vasitələri və qeyri-hökumət təşkilatlarının "işi" sayırlar. Amma əslində bu belə deyil – dövlət oqanlarının vətəndaşlara xidməti səmərəsiz, keyfiyyətsiz, qapalı və məsuliyyətsiz formada təşkil olunursa, bu zaman idarəetmədə vətəndaş iştirakı güclənməli və vətəndaş təşəbbüskarlığı artmalıdır.

SMDT-nin uzun illər həyata keçirdiyi proqramlar və apardığı araşdırmalar göstərir ki, ölkəmizdə yerli idarəetmədə vətəndaş iştirakının təbliği və tədrisi davamlı və sistemli səciyyə daşımalıdır. Bu baxımdan təqdim olunan toplu bir çox milli qanunlardan çıxarışlar, yerli və xarici təcrübələr əsasında hazırlanmış tövsiyyələrdən ibarət olmaqla vətəndaşların yerli idraəetmədə fəal iştirakına töhfə verə bilər.

SMDT ümid edir ki, bu toplu oxuculara ölkəmizdə yerli səviyyəli problemlərinin həlli naminə mərkəzi və yerli hakimiyyət orqanları, siyasi partiyalar və qeyri-hökumət təşkilatları ilə birgə olmağa kömək edəcək və vətəndaş iştirakının müxtəlif formaları və üsulları barədə informasiya bolluğunun yaradılmasına dəstək olacaq.

# II. Yerli idarəetməni həyata keçirən orqanlar və onların səlahiyyətləri

## Yerli icra hakimiyyətləri

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinə uyğun olaraq yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. İcra hakimiyyəti başçıları öz işlərinə görə Azərbaycan Respublikasının Prezidenti qarşısında məsuliyyət daşıyırlar.

***Yerli icra hakimiyyətləri başçılarının aşağıdakı əsas vəzifələri var:***

- Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş dövlət proqramlarının, habelə müvafiq yerli proqramların həyata keçirilməsi üçün tədbirlər görür;
- tabeçiliyində olan orqan, idarə, müəssisə və təşkilatların rəhbərlərinin aktlarını qanunvericiliyə zidd olduqda ləğv edir;
- müvafiq inzibati-ərazi vahidində müvafiq icra hakimiyyəti orqanları tərəfindən və tabeliyində olan müəssisə, idarə və təşkilatlar tərəfindən vətəndaşların yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait yaradır, qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə onlara cavab verilməsini təmin edir və nəzarəti həyata keçirir, vətəndaşların qəbul olunmasını təşkil edir və nəzarəti həyata keçirir;
- vətəndaşların əsaslandırılmış təkliflərini öz fəaliyyətində nəzərə alır;
- seçkilərin, ümumxalq səsvermələrinin (referendumların) və müzakirələrin keçirilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edir;
- müvafiq icra hakimiyyəti orqanları qarşısında ərazinin inkişafına dair məsələlər qaldırır, təkliflər verir;
- icra hakimiyyəti orqanının fəaliyyəti ilə bağlı məlumatların əhaliyə mütəmadi çatdırılması məqsədi ilə kütləvi informasiya vasitələrində məlumatlar verilməsini təmin edir;

*Rayon bölgüsü olan şəhərin icra hakimiyyəti başçısı yuxarıda göstərilənlərlə yanaşı, aşağıdakı vəzifələri də həyata keçirir:*

- şəhər rayonlarının icra hakimiyyəti başçılarına rəhbərliyi həyata keçirir;
- şəhər rayonlarının icra hakimiyyəti başçılarının hesabatlarını dinləyir; şəhərin iqtisadi, sosial inkişaf və ekoloji proqramlarının, Azərbaycan Respublikasının dövlət büdcəsindən ayırmaların layihəsinin və dövlət proqramlarının layihələrinin hazırlanması zamanı şəhər rayonlarının icra hakimiyyəti başçılarından müvafiq təkliflər alır;

***Qeyd: (Bakı və Gəncə rayon bölgüsü olan şəhərlərdir. Bakı şəhərinin tərkibinə 11, Gəncə şəhərinin tərkibinə isə 2 inzibati rayon daxildir.)***

*Yerli icra hakimiyyətlərinin aktları*

İcra hakimiyyəti başçısı səlahiyyətləri daxilində sərəncamlar və əmrlər verir. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə müvafiq olaraq öz səlahiyyətləri daxilində ***yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd olmayan*** normativ xarakterli aktlar qəbul edə bilərlər. Yerli icra hakimiyyəti orqanlarının normativ aktları müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçdikdən sonra özlərində başqa qayda nəzərdə tutulmamışdırsa, dərc edildiyi gündən qüvvəyə minir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə uyğun olaraq yerli icra hakimiyyəti orqanlarının aktlarını Azərbaycan Respublikasının Prezidenti ləğv edə bilər.

***İcra hakimiyyəti başçısının aşağıdakı əsas səlahiyyətləri vardır:***

- qəzalardan, təbii fəlakətlərdən zərər çəkmiş vətəndaşlara lazımi yardımın göstərilməsini təşkil etmək;
- tabeliyində olan müəssisələrin, idarələrin və təşkilatların rəhbərlərini, əgər digər qayda nəzərdə tutulmamışsa, qanunvericiliyə uyğun olaraq vəzifəyə təyin etmək və vəzifədən azad etmək, onların işləri barədə məlumatlarını dinləmək; müəyyən edilmiş qaydada müəssisə, idarə və təşkilatlar yaratmaq;
- mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan vətəndaşların uçotunu aparmaq və dövlət yaşayış fonduna daxil olan binalarda onlara mənzil vermək;
- elektrik, su kəməri, kanalizasiya, istilik və qaz şəbəkələrinin və qurğularının istismarını təşkil etmək, ***onların fasiləsiz işini təmin etmək,*** yaşayış məntəqələrinin onların öz hesabına və müqavilələr əsasında elektrikləşdirilməsi, qaz və su ilə təchizatı məsələlərini həll etmək, suyun keyfiyyətinə nəzarəti həyata keçirmək və lazım olduqda zəruri olan tədbirlər görmək, müvafiq ərazidə müəssisələr və təşkilatlar tərəfindən tikilən elektrik, su kəməri, kanalizasiya, istilik və qaz şəbəkələri və qurğularının tikintisinə dair rəy vermək, əhalinin yanacaqla təmin olunması üçün tədbirlər görmək;
- məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görmək;
- yaşayış məntəqələrində abadlıq işlərini təşkil etmək, müqavilə əsasında bu işlərin aparılmasına müəssisə, idarə və təşkilatların, habelə əhalinin vəsaitlərini cəlb etmək, istehsalat ərazilərində, abadlıq işlərinin aparılmasına nəzarət etmək, yaşıllaşdırma işini həyata keçirmək, yaşıllıqların qorunmasını, vətəndaşların istirahət yerlərini təşkil etmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada sosial-mədəni, idman və bədən tərbiyəsi təyinatlı obyektlər yaratmaq və onların işini təşkil etmək;
- yaşayış yerləri üzrə və kütləvi istirahət yerlərində bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün şərait yaratmaq;
- qanunvericiliklə müəyyən olunmuş qaydada işləməyən vətəndaşların uçotunun aparılması, əhalinin işlə təmin edilməsi, məşğulluq səviyyəsinin artırılması üçün tədbirlər görmək və həyata keçirmək;
- səlahiyyətləri daxilində müvafiq ərazidə Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, Azərbaycan Respublikasının Prezidentinin fərmanlarının, digər normativ-hüquqi aktların həyata keçirilməsinə nəzarəti həyata keçirmək, vətəndaşların hüquq və azadlıqlarının müdafiə edilməsi üçün tədbirlər görmək;
- məhkəmə, prokurorluq, polis, ədliyyə və digər hüquq mühafizə orqanlarına onların işində kömək etmək, onlardan müvafiq ərazidə ictimai asayişin qorunması, kriminogen vəziyyət, habelə vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasının təmin olunması haqqında məlumatlar almaq;
- qanunvericiliyə uyğun olaraq yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin keçirilməsi ilə əlaqədar məsələləri həll etmək;
- vətəndaşların qəbulunu, onların ərizə, təklif və şikayətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə baxılmasını təşkil etmək, səlahiyyətləri daxilində onlara dair lazımi tədbirlər görmək, tabeliyində olan idarə, təşkilat və müəssisələrdə həmin işin təşkilinə nəzarəti həyata keçirmək;
- təbii fəlakətlər və ya digər fövqəladə hadisələr olduqda müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətinin təmin edilməsi, dövlət və xüsusi mülkiyyətin qorunması, ictimai qaydalara riayət olunması, insanların həyatının xilas edilməsi, onların sağlamlığının və hüquqlarının qorunması, maddi sərvətlərin qorunub saxlanılması məqsədi ilə tədbirlər görülməsinə köməklik etmək;

***Rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə icra nümayəndəliyi***

Rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyəti başçısı tərəfindən təyin olunmuş icra nümayəndəsinin rəhbərlik etdiyi icra nümayəndəliyi fəaliyyət göstərir.

***Məsələn, Bibiheybət kəndində Səbayıl rayon İcra Hakimiyyəti başçısının nümayəndəliyi fəaliyyət göstərir, Səbayıl şəhər rayonudur. Liman şəhərində Lənkəran rayon İcra Hakimiyyəti başçısının nümayəndəliyi fəaliyyət göstərir, Liman rayon tabeli şəhərdir.***

***İcra nümayəndəsi:***

- icra hakimiyyəti başçısının səlahiyyətlərinin həyata keçirilməsinə kömək göstərir, onun səlahiyyətlərinə aid olan məsələlərə dair təkliflər verir, tapşırıqlarını həyata keçirir;
- vətəndaşların qəbulunu həyata keçirir, onların şikayət, ərizə və təkliflərinə baxır və lazımi tədbirlər görür;
- qanunvericiliklə müəyyən edilmiş qaydada vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparır, notariat işlərini görür, vətəndaşlara onların şəxsiyyətini, ailə vəziyyətini təsdiq edən arayışlar və qanunvericiliklə nəzərdə tutulmuş digər arayışlar verir.

***Yerli icra hakimiyyəti orqanlarının məsuliyyəti***

Yerli icra hakimiyyəti başçıları, onların aparatlarının, şöbə, idarə və digər xidmətlərinin vəzifəli şəxsləri fəaliyyətlərinə və qəbul etdikləri qərarlara görə qanunvericiliklə müəyyən edilmiş qaydada ***məsuliyyət daşıyırlar***. Yerlərdə icra hakimiyyətinin vəzifəli şəxslərinin qərarları qanunvericiliyə zidd olduqda, vətəndaşların hüquqlarını və qanuni mənafelərini pozduqda onların qanunvericiliklə müəyyən edilmiş qaydada ***məhkəməyə müraciət etmək hüququ*** vardır.

## Bələdiyyələr

Azərbaycan Respublikasında yerli idarəertməni həyata keçirən bələdiyyələrə ilk seçkilər 1999-cu ilin dekabr ayında keçirilib və hər 5 ildən bir bələdiyyələrə seçkilər keçirilməlidir. Azərbaycan Respublikası Konstitusiyası ilə bələdiyyələrə aşağıdakı səlahiyyətlər verilib:

- bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;
- bələdiyyənin reqlamentinin təsdiq edilməsi;
- bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyalırın seçilməsi;
- yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;
- yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;
- bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;
- yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;
- yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;
- yerli ekoloji proqramların qəbul və icra edilməsi.

Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

***Bələdiyyə üzvü*** – bələdiyyə seçkilərində seçilmiş, mandatı dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir.

***Bələdiyyə qulluqçusu*** – yerli özünüidarə orqanlarında təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən şəxs hesab edilir. Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz.

Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri insan və vətəndaş hüquqlarına və azadlıqlarına bilavasitə aid sənəd və materiallarla hər bir vətəndaşın tanış olmaq, habelə qanunla xüsusi hallar nəzərdə tutulmayıbsa, bələdiyyələrin fəaliyyəti haqqında tam məlumat almaq imkanını təmin etməyə, seçicilərin tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

**Bələdiyyə üzvünün hüquqları:**

Bələdiyyə üzvü bələdiyyənin fəaliyyəti ilə bağlı aşağıdakı hüquqlara malikdir:

- bələdiyyənin daimi və digər komissiyalarına üzvü seçmək və seçilmək;
- bələdiyyənin və onun orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək, müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrlə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək;
- bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;
- bələdiyyənin daimi və başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;
- bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;
- sorğu vermək;
- qanunvericiliyə müvafiq surətdə yerli radio və televiziyadan, mətbu nəşrlərdən istifadə etmək.

***Bələdiyyə üzvünün sorğusu***

Bələdiyyə üzvü yerli məsələlərlə bağlı bələdiyyənin vəzifəli şəxslərinə, bələdiyyənin icra orqanlarına, bələdiyyə müəssisə, idarə və təşkilatlarına sorğu ilə müraciət etmək hüququna malikdir. Bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və (və ya) yoxlanılması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidir.

***Bələdiyyə üzvünün müraciət etməsi***

Bələdiyyə üzvü müvafiq icra hakimiyyəti orqanlarına yerli əhəmiyyətli məsələlərlə bağlı müraciət edə bilər.

***Bələdiyyə üzvünün seçicilərlə əlaqə saxlaması***

Bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalı, görüşlər keçirməli, onların təkliflərinə, müraciətlərinə və şikayətlərinə baxmalıdır. Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir. Bələdiyyə ərazisində yerləşən bələdiyyə müəssisə, idarə və təşkilatları bələdiyyə üzvünü seçicilərlə görüşmək üçün köməklik göstərməlidirlər.

**Bələdiyyə iclasları**

Bələdiyyə iclasları ayda bir dəfədən az olmayaraq bələdiyyənin sədri tərəfindən çağrılır. Bələdiyyənin iclası bələdiyyə üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Bələdiyyənin iclasları bələdiyyə ərazisində yaşayan əhalinin azı on faizinin, yaxud bələdiyyə üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinin II hissəsinə uyğun olaraq, bələdiyyə iclaslarında baxılan məsələlərə dair bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qərarlar qəbul edilir və bütün iclaslar protokollaşdırılmalıdır.

# III. Vətəndaşların yerli problemlərin həlli ilə bağlı iştirakı

## Müraciət qaydaları

***Müraciət etmək hüququ.*** Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinə əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

Vətəndaş müraciəti həmin məsələni bilavasitə həll etməli olan dövlət hakimiyyəti orqanlarına və ya vəzifəli şəxslərə etməlidir. Vətəndaş dövlət hakimiyyəti orqanı, idarə, təşkilat və müəssisənin fəaliyyətinin yaxşılaşdırılmasını, təhsil, elm, texniki, hüquq, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli ilə əlaqədar ***təkliflə*** müraciət edə bilər. Vətəndaş ona məxsus hüquqların həyata keçirilməsi ilə bağlı tələblərini ***ərizədə*** qeyd etməklə müraciət edə bilər. Dövlət orqanına pozulmuş hüququn bərpası tələbi barədə ***şikayət*** edə bilər.

***Müraciət etmək hüququnun həyata keçirilmə qaydaları***

Müraciət vətəndaş tərəfindən imzalanmalı, vətəndaşın adı, atasının adı, soyadı, ünvanı, yaxud işlədiyi yer göstərilməlidir. Əks halda müraciət anonim sayılır və ona baxılmır. Müraciəti qəbul etməkdən imtina qadağandır. **Vətəndaşların tələbi ilə müraciətin qeydə alınma nömrəsi və tarixi ona bildirilir.**

***Müraciətə baxılma qaydaları***

Dövlət hakimiyyəti orqanları və vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli, onların səlahiyyətinə aid olmadıqda, bunları 5 gündən gec olmayaraq aidiyyəti üzrə təşkilata göndərir və bu barədə müraciət edənə məlumat verir, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah edir. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, müraciətə qanunvericiliklə başqa müddət nəzərdə tutulmamışdırsa, 15 gün müddətində, istisna hallarda 1 ay ərzində baxılmalıdır. Hərbi qulluqçuların və onların ailə üzvlərinin müraciətinə daxil olduğu gündən etibarən ən geci 15 gün ərzində baxılır. Əgər müraciətə yuxarıda göstərilən müddətlərdə baxılması nəticəsində lazım olan veriləcək məlumat öz əhəmiyyətini itirə bilərsə, həmin müraciətə dərhal, bu mümkün olmadıqda isə, 24 saatdan gec olmayaraq baxılmalıdır. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciət üzrə araşdırma ən çoxu 30 gün müddətində başa çatdırılmalıdır. Dövlət hakimiyyəti orqanının rəhbəri araşdırmanın nəticəsini aldıqdan sonra müraciət üzrə qərar qəbul edir. ***Vətəndaşların şikayətlərini baxılmaq üçün qanuna zidd hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə göndərmək qadağandır.***

Öz müraciəti barəsində qəbul edilmiş qərarla razılaşmayan vətəndaş bu qərarı qəbul etmiş orqanın və ya vəzifəli şəxsin bilavasitə tabe olduğu yuxarı orqana və ya vəzifəli şəxsə həmin qərar barəsində şikayət edə bilər.

***Qeyd: Səlahiyyətli orqanlara yazılı surətdə müraciət etmək məsləhət görülür. Çünki yalnız bu halda vətəndaş sonradan məhkəmədə müraciət etdiyini sübut edə bilir. Müraciətin ünvanlanan orqana nə zaman çatdığını bilmək üçün onu xəbərnaməli poçtla göndərmək daha məqsədəuyğundur.***

***Şikayət hüququ***

*Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinə görə,* hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

***Səlahiyyətli şəxslərin və orqanların hərəkətlərindən şikayət etmək hüququ***

İcra hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərar və hərəkətləri (hərəkətsizlik) aşağıdakı hallardan ən azı birinə səbəb olubsa,

- Şəxsin üzərinə qanunsuz olaraq hər hansı vəzifə qoyulmuş;
- Şəxs qanunsuz olaraq məsuliyyətə cəlb edilmiş;
- Şəxsin hüquq və azadlıqları pozulmuşsa;
- Şəxsin hüquq və azadlıqlarını həyata keçirməyə maneçilik yaradılmışsa

o zaman, şəxs özünün hüquq və azadlığının pozulduğu barədə ona məlum olan gündən qanunda başqa müddət müəyyən edilməyibsə, 1ay müddətində ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdir.

Şikayətdə hansı orqanın, vəzifəli şəxsin qərar, hərəkət və hərəkətsizliyi barədə olması göstərilməlidir. Bu zaman vəzifəli şəxsin adı, soyadı və vəzifəsi də göstərilməlidir.

Əgər şikayət hər hansısa qərar barəsindədirsə, həmin qərarın surəti şikayət məktubuna əlavə olunmalıdır. ***Bax: 1 saylı əlavəyə.***

***Şikayətə baxılma qaydası***

Ərizəyə məhkəmə tərəfindən 1 ay müddətində baxılır. Hakim ərizəni əsaslı hesab etdikdə, şəxsin hüquq və azadlıqlarının pozulmasına və ya məhdudlaşdırılmasına dair halların şikayət edilən orqan və ya şəxslər tərəfindən tamamilə aradan qaldırılması vəzifələri barədə qətnamə çıxarır. Məhkəmənin qətnaməsi qərar və hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqana və ya şəxsə qətnamənin qanuni qüvvəyə minməsindən sonra 3 gün müddətində göndərilir. Vəzifəli şəxslər qətnamənin icrası barədə onun alındığı gündən 1 aydan gec olmayaraq məhkəməyə və şəxsə məlumat verməlidir.

***Vergi orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti***

Vergi ödəyicisinin və ya başqa borclu şəxsin vergi orqanının qərarlarından (aktlarından), vergi orqanının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayətinə həmin şikayət alındığı gündən 30 gün müddətində baxılır və şikayət vermiş şəxsə yazılı cavab verilir. Vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, vergini ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət verə bilər.

***Vətəndaşların bələdiyyələr, bələdiyyə orqanları və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin qanunsuz hərəkətlərindən və aktlarından şikayət hüququ***

Bələdiyyənin ərazisində yaşayan vətəndaşlar, bələdiyyələr, bələdiyyə orqanları və bələdiyyə orqanlarının vəzifəli şəxsləri dövlət hakimiyyəti orqanlarının və dövlətin vəzifəli şəxslərinin onların hüquqlarını pozan aktlarının etibarsız sayılması barədə məhkəməyə iddia verə bilərlər. Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət verilə bilər.

***Artıq tutulmuş dövlət rüsumunun qaytarılması***

Aşağıdakı hallarda ödəyicinin ərizəsinə əsasən ödənilmiş dövlət rüsumu 45 gün müddətində qismən və ya tamamilə ödəyiciyə geri qaytarılır:

- qanunla müəyyən edilmiş miqdardan artıq dövlət rüsumu ödənildikdə;
- ərizələr qaytarıldıqda və ya ərizə baxılmamış saxlanıldıqda ;
- notariat əməliyyatlarının icrasından imtina edildikdə;
- məhkəmələr tərəfindən iş üzrə icraata xitam verildikdə

Dövlət rüsumunun məbləğləri barədə məlumat müvafiq xidmət göstərən dövlət orqanının olduğu binanın və ya otağın görünən yerində lövhədə yerləşdirilməlidir.

***Düzgün tutulmayan vergilərin geri qaytarılması***

Vergi orqanları tərəfindən düzgün tutulmayan vergi, maliyyə sanksiyaları, faizlər və inzibati cərimələrin məbləğləri, vergilər üzrə borclar olmadıqda, Vergilər Məcəlləsində başqa hallar nəzərdə tutulmadıqda vergi ödəyicisinin müraciəti ilə məhkəmənin qərarına əsasən 45 gün müddətində geri qaytarılmalıdır və ya gələcək ödənişlərin hesabına aid edilə bilər. Vergi ödəyicisi öz hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 3 ay müddətində (üzürlü səbəblər istisna olmaqla) vergi orqanlarının qərarlarından (aktlarından), habelə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) qanunla müəyyən edilmiş qaydada yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə şikayət verə bilər.

## Deputata necə müraciət etmək olar?

Milli Məclisin rəsmi veb-saytında onun səlahiyyətli şəxslərinin (Milli Məclis sədri, Sədr müavinləri, daimi komitələrin sədrləri, Milli Məclis aparatının rəhbəri, aparata daxil olan şöbə müdirləri) hər ay üçün qəbul günlərinin cədvəli əks olunmuşdur.
http://www.meclis.gov.az/?/az/ask/personal/

Müraciət etmək istəyən şəxslər həmin ünvana daxil olub, orda olan bəndləri doldurmaqla həmin şəxslərin qəbuluna yazıla bilər və qeyd olunmuş gündə qəbula düşüb öz müraciətini edə bilər. Vətəndaş həmçinin, deputata yazılı şəkildə də müraciət edə bilər. Bunun üçün şəxs öz müraciətini Parlament Prosekti 1, AZ 1152, Bakı, Azərbaycan ünvanına göndərə bilər. Müraciət edən şəxsin adı, soyadı, atasının adı və ünvanı göstərilməyən müraciət anonim hesab edilir və o, ünvanlandığı orqan tərəfindən baxılmamış saxlanılır.

## İmzatoplama kampaniyası

Əgər vətəndaşlar yerli problemlərin həllində birgə iştirak etmək istəyirlərsə, o zaman onlar aidiyyəti dövlət orqanına birgə müraciət edə bilərlər. Təcrübə göstərir ki, problemin həlli üçün vətəndaşlar birgə çalışdıqda daha tez müsbət nəticə əldə edə olunur.

### *İmzatoplama*

Hər bir vətəndaş, Siyasi partiyalar, QHT-lər, Həmkarlar İttifaqları və s. qurumlar ölkədə və dünyada baş verən istənilən məsələ ilə bağlı etirazını, təpkisini, dəstəyini ifadə etmək üçüb imzatoplama kampaniyası həyata keçirə bilər. Kampaniya hər hansı problemin həlli üçün daha geniş kütlənin cəlb edilməsi məqsədi daşıyır.

**Vətəndaşlardan şəxsən imzatoplama** isə hər hansı bir məsələ ilə bağlı (yerli problemin Milli Məclisdə səsləndirilməsi, büdcə xərclərinin açıqlanması və s.) vətəndaşların həyata keçirdiyi imzatoplama kampaniyasıdır. Bu kampaniya, adətən, kağız üzərində aparılır və vətəndaşlar şəxsən qoşulurlar.

***Bax: 2 saylı əlavəyə.***

## Vətəndaşların yerli idarəetmədə birbaşa iştirakı

### *Vətəndaşların yığıncaqları*

***"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası qanununda*** göstərilir ki, Vətəndaşlar yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmək, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsilə və digər formalarda həyata keçirə bilərlər.

### *Yerli rəy sorğusu*

Yerli rəy sorğusu yerli əhəmiyyətli məsələlərin həll edilməsi üçün təyin edilir. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə nizamnaməsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir. Bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda bilavasitə və könüllülük əsasında iştirak etmək hüququ vardır. Yerli rəy sorğusunda səsvermə gizli və ya açıq keçirilir, vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

Əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə həmin bələdiyyə ərazilərində vətəndaşlar öz yığıncaqlarını keçirə bilərlər. Vətəndaşların yığıncaqlarında həmin bələdiyyə ərazisində yaşayan 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır. Vətəndaşların yığıncaqlarında bələdiyyənin nizamnaməsi və başqa qərarlar qəbul edilir, dəyişdirilir və ləğv olunur. Bu yığıncaqlar bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir.

Bələdiyyənin nizamnaməsinə uyğun olaraq, əhalinin yerli əhəmiyyətli məsələlərə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək hüququ vardır. Yerli əhəmiyyətli məsələlər barəsində əhalinin bələdiyyələrə verdiyi bələdiyyə aktlarının layihələri hökmən əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı, nəticələri rəsmən elan edilməlidir.

Vətəndaşların bələdiyyələrə bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə fərdi və kollektiv surətdə müraciət etmək hüququ vardır. Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər. Vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına və onların vəzifəli şəxslərinə müraciətlərinə cavab verilməsi müddətlərinin və qaydasının pozulması bu Qanuna, Azərbaycan Respublikasının digər qanunlarına əsasən müvafiq məsuliyyətə səbəb olur.

### *Məhəlli komitələr*

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə müvafiq olaraq, bələdiyyələrin məhəllə komitələri (bundan sonra – "məhəllə komitələri") bələdiyyələrin səlahiyyətlərinə aid məsələlərin həllində onlara kömək məqsədi ilə vətəndaşların yaşayış yeri üzrə öz təşəbbüsü ilə yaratdıqları könüllü birliklərdir. Məhəllə komitəsi ərazi prinsipi üzrə yaradılır. Məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazi ayrıca bir və ya bir neçə evin (məhəllənin) hüdudları ilə müəyyən edilir. Məhəllə komitəsi, həmin komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan əhalinin yığıncağında 5-11 üzvdən ibarət tərkibdə açıq səsvermə yolu ilə iki il müddətinə seçilir. Yığıncaq komitənin fəaliyyət göstərdiyi ərazidə yaşayan və səsvermə hüququ olan vətəndaşların azı 15 faizi iştirak etdikdə səlahiyyətlidir. Həmin yığıncaqda məhəllə komitəsinin sədri, sədr müavini və katibi seçilir.

Məhəllə komitəsinin tərkibinə həmin ərazidə yaşayan, yaşı 18-dən aşağı olmayan vətəndaşlar seçilirlər. Vətəndaşların yığıncağında iştirak edənlərin səslərinin yarısından çoxunu toplamış şəxslər bu komitənin tərkibinə seçilmiş hesab olunurlar. Məhəllə komitəsi vətəndaşların yığıncağının qərarı ilə vaxtından əvvəl tamamilə və ya qismən yenidən seçilə bilər. Vətəndaş yığıncaqları məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan səsvermə hüququ olan şəxslərin azı 10 faizinin və ya məhəllə komitəsi üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

Məhəllə komitəsi, lazım olan hallarda, lakin iki ayda bir dəfədən az olmamaq şərti ilə çağırılır və üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir. İclasda görüləcək tədbirlərin siyahısını və növbəliyini müəyyən edir və görülmüş işlərin uçotunu aparır. Komitənin iclasları açıq keçirilir və qərarları açıq səsvermə vasitəsilə və adi səs çoxluğu ilə qəbul olunur və öz fəaliyyəti barədə altı ayda bir dəfə vətəndaşların yığıncağında hesabat verir. Yığıncağın keçirilməsi haqqında müvafiq məhəllə komitəsinin fəaliyyət göstərdiyi ərazidə yaşayan şəxslərə bir həftə qabaq məlumat verilməlidir.

***Məhəllə komitələri aşağıdakı əsas səlahiyyətləri həyata keçirir:***

- yerli əhəmiyyətli məsələlər barəsində bölədiyyələr qarşısında vəsatət qaldırmaq;
- yerli əhəmiyyətli məsələlərlə bağlı vətəndaşların yığıncaqlarını keçirmək;
- yerli əhəmiyyətli məsələlərlə dair bələdiyyə aktları yaratmaq təşəbbüsü göstərmək və həmin aktların layihələrini əhalinin iştirakı ilə açıq iclaslarda müzakirə etmək;
- müvafiq bələdiyyə torpaqlarından istifadəyə dair rəy və təkliflər vermək;
- yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması, sanitariya vəziyyətinin yaxşılaşdırılması, uşaq və idman meydançalarının, avtomobil yollarının, küçələrin, səkilərin, digər obyektləri tikintisi, yenidən qurulması, təmiri və saxlanması işində əhalinin iştirakını təşkil etmək;
- təbiətin, tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında qanunvericiliyə riayət olunmasına kömək etmək;
- məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsində tədris müəssisələrində kömək etmək;
- uşaq və gənclərin istirahəti, idmanla olmaq üçün şərait yaradılmasına kömək etmək;
- fəaliyyət göstərdiyi ərazidə yaşayan imkansızlara, xəstələrə və ahıl vətəndaşlara yardım göstərmək;
- yerli əhəmiyyətli məsələlərin həllində əhalinin təşəbbüskarlığının və özünüidarəetmə təcrübəsinin inkişafına kömək etmək.
- Məhəllə komitələri Azərbaycan Respublikasının qanunvericiliyinə və müvafiq bələdiyyənin nizamnaməsinə zidd olmayan digər səlahiyyətləri də həyata keçirə bilər.

Məhəllə komitələri öz səlahiyyətlərini könüllü ianələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına həyata keçirir. Bələdiyyələr məhəllə

komitələrinin verdiyi rəy, təklif və ya vəsatətlərə bir ay ərzində cavab verməlidirlər. Hər hansı məsələyə dair məhəllə komitələrinin rəyi həmin məsələlərin həlli zamanı bələdiyyələr tərəfindən nəzərə alınır.

## İnformasiya əldə etmək hüququ

***İnformasiya əldə etmək hüququ***

İnformasiya əldə etmək haqqında qanunda göstərilir ki, Azərbaycan Respublikasında informasiyanın əldə olunması azaddır. Hər kəs özü birbaşa və ya nümayəndəsi vasitəsilə informasiya sahibinə müraciət etmək, informasiyanın növünü və əldə etmə formasını seçmək hüququna malikdir.

***İnformasiya sorğusunun tərtib olunma qaydası***

Yazılı informasiya sorğusunda sorğuçunun adı və soyadı, informasiya sahibinin sorğunu təmin edə bilməsi üçün sorğuçuya aid əlaqə məlumatları (poçt və ya elektron poçt ünvanı, telefon və ya telefaks nömrəsi), sorğu edilən informasiyanın məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri, informasiyanın təqdim edilmə forması göstərilməlidir. Əgər sorğuçu fərdi məlumat əldə etmək istəyirsə, sorğunu bilavasitə informasiya sahibinin vəzifəli şəxsinə verir və bu zaman şəxsiyyətini təsdiqləyən sənəd təqdim edir. Fərdi məlumat tələb olunduqda, yaxud dövlət və ya bələdiyyə qulluqçusu qulluq vəzifəsini yerinə yetirmək üçün sorğu verdikdə, informasiya əldə etməyin zərurəti əsaslandırılmalıdır. Yazılı sorğu şəxs, yaxud onların səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır.

***Bax: 3 saylı əlavəyə.***

***İnformasiya sorğusu ilə müraciət olunan şəxsin vəzifələri***

Yazılı sorğunu qəbul etməkdən imtina qadağandır. Sorğu edilən informasiya informasiya sahibində yoxdursa, o, sorğunu 5 iş günündən gec olmayaraq aidiyyəti orqana göndərməli, bu barədə sorğuçuya məlumat verməlidir. İnformasiya sorğusu 7 iş günündən, istisna hallarda 14 iş günüdən gec olmayaraq icra edilir. İnformasiya sahibi müddəti uzadarsa, bu barədə sorğuçuya səbəblərini göstərməklə 5 iş günü ərzində məlumat verir. Bu müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavab verilməlidir. İnsan həyatı, sağlamlığı, yaxud şəxsin azadlığı üçün real təhlükə yarandığı hallarda axtarılması və hazırlanması müəyyən vaxt tələb edən informasiya 48 saat ərzində (bayram və istirahət günləri istisna olmaqla) təqdim edilir.

Dövlət sirri ***məxfi məlumatlar*** hesab olunur.

Vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədi ilə əldə olunmasına məhdudiyyət qoyulan peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri, habelə fərdi məlumatlar ***konfidensial məlumatlar*** hesab olunur.

***İnformasiya əldə etmək hüququnun pozulmasına görə şikayət etmək hüququ***

Sorğuçu informasiya sahibinin qanunsuz hərəkətlərindən məhkəməyə və ya İnsan Hüquqları üzrə Müvəkkilə şikayət etmək hüququna malikdir. Əgər şikayət ərizəsi ilə müraciət edənin fikrincə informasiya sahibi sorğunun icrasından qeyri-qanuni imtina etmişsə, yaxud qeyri-dəqiq və natamam informasiya təqdim etmişsə, bu halda şikayət ərizəsinə yazılı cavabın, yaxud qeyri-dəqiq və ya natamam hesab edilən sənədin surəti də əlavə edilməlidir.

## İctimai vəkillik

"Vəkillik" (*advocacy*) sözü dilimizdə bir çox anlayışları ifadə edir. İctimai vəkillik fəaliyyəti aşağıdakı anlayışlarla sıx bağlıdır:

- ✓ *Nəyinsə xeyrinə havadarlıq və ya ictimai çıxış etmək*
- ✓ *Nəyisə dəstəkləmək, irəli sürmək, təbliğ etmək*
- ✓ *Başqasına himayədarlıq etmək, zamin durmaq*
- ✓ *Üçüncü şəxsin mənafeyini müdafiə məqsədilə məhkəmədə çıxış etmək*

### *İctimai vəkillik nədir?*

**İctimai vəkillik** – hər hansısa bir ictimai məsələnin və ya ideyanın dəstəklənməsinə yönəlmiş planlı fəaliyyətdir.

**İctimai vəkillik** – hər hansısa bir problemə dair ucadan danışmaqla ictimaiyyətin və nüfuzlu şəxslərin diqqətini çəkmək və onları problemin həllinə cəlb etməkdir.

**İctimai vəkillik** – ayrı-ayrı rəsmilərin və ya qurumların ictimaiyyətə təsir edən qərar və siyasətlərində və ya mövqe və münasibətlərində pozitiv dəyişikliklər yaratmaq üçün planlı, sistemli və mütəşəkkil qaydada həyata keçirilən bir fəaliyyətdir.

Ancaq sadalananları ümumiləşdirsək, dəyişməz olaraq qalan bir subyekt var - **ictimai maraqlar.** Bu səbəbdən ictimai vəkillik anlayışını bəzən də "ictimai maraqların müdafiəsi" kimi təqdim edirlər.

İctimai vəkillik məsələləri idarəçiliyin rəsmi qanun, qərar və siyasətləri ilə məhdudlaşmır. Cəmiyyətlər yalnız yazılı deyil, eyni zamanda yazılmamış qanun və qərarlarla, adət, ənənə və baxışlarla da idarə olunur. Bir sözlə, bu qərarvermə müstəvilərinin hansında dəyişiklik lazımdırsa, orda vəkilliyə ehtiyac var.

İctimai vəkilliyin bir neçə təməl qaydaları vardır ki, istənilən vəkillik kampaniyasının hazırlanması prosesi məhz onlara əsaslanmalıdır:

- ✓ Problemlərin müəyyənləşdirilməsi
- ✓ Məqsəd və tapşırıqları
- ✓ Hədəf auditoriyası
- ✓ Potensial tərəfdaşlar
- ✓ İsmarışlar
- ✓ İnformasiya yayımı vasitələri
- ✓ Resurslar
- ✓ İcra (Təqvim) planı

Bu qaydalar həmçinin istənilən vəkillik kampaniyasının hazırlanması prosesinin mərhələlərini də təşkil edir və demək olar ki, eyni adla və ardıcıllıqla sıralanır. Çox vacibdir ki, onların hər birinə vəkilliyin prinsipial və ayrılmaz komponenti kimi yanaşılsın.

***İctimai Müzakirələr***

İctimai müzakirələr problemin həlli üçün mühüm olan vasitələrdən biridir. İctimai müzakirələr problemin müzakirə olunması ilə yanaşı onun ictimaiyyətin diqqətinə çatdırmaq baxımından əhəmiyyətlidir. İctimai müzakirəyə çıxarılan məsələnin həlli yollarını tapmaq daha asan olur. Çünki bu müzakirələrdə müxtəlif insanlar - sadə vətəndaşlar, bu sahə üzrə yerli və beynəlxalq ekspertlər, jurnalistlər, QHT nümayəndələri, millət vəkilləri və s. şəxslər iştirak edə bilərlər. Bu müzakirələrdə insanlar gündəmdə olan problemlə bağlı öz təkliflərini verirə, başqaları tərəfindən irəli sürülmüş təkliflərin mənfi nəticələr doğuracağını əvvəlcədən bildirə bilərlər. Əksər vaxt ictimai müzakirələrin sonunda problemin həlli üçün əhəmiyyətli olacaq tövsiyyələr və yaxud da təkliflər qəbul edilə bilər və bu da problemin müsbət həllinə yardım etmiş olar. Vətəndaşlar onları düşündürən məsələləri daim gündəmə gətirib, müxtəlif ictimai-siyasi, sosial mövzular ətrafında ictimai müzakirələr təşkil edə bilərlər.

***Media kampaniyası***

Media kampaniyası hansı bir məsələ ilə bağlı media vasitəsilə aparılan ictimai kampaniya - təbliğatdır. Media kampaniyası hər hansı məsələni daha da ictimailləşdirmək baxımından mühüm rola malikdir. Vətəndaşlar müxtəlif vasitələrdən istifadə edərək öz məqsədlərinin insanlar arasında daha çox yayılmasına şərait yaratmış olur. Media kampaniyası aparılan zaman daha çox KİV və sosial şəbəkələrdən istifadə edilir.

***Etiraz aksiyaları***

Etiraz aksiyaları insanların siyasi, sosial və iqtisadi və digər problemlərlə bağlı olaraq öz fikirlərini ifadə etmə üsuludur. Etiraz aksiyalarını müxtəlif sahələrdə çalışan vətəndaşlar çalışdıqları sahədə qarşılaşdığı və ya siyasi fəaliyyətlə məşğul olan şəxslər ölkənin idarəedilməsində olan problemlər və yaxud da iqtisadi və digər problemlərlə bağlı olaraq keçirirlər. Vətəndaşlar öz etirazlarını dinc şəkildə də həyata keçirərərək müxtəlif şüarlar səsləndirməklə ictimaiyyətin və hökumətin diqqətini bu problemə yönəldirlər.

# IV. Əsas yerli problemlərin həlli yolları

## 1. Elektrik enerjisinin verilişində fasilələr

***"Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin fərmanında*** göstərilir ki, icra hakimiyyəti başçısının elektrik şəbəkələrinin və qurğularının istismarını təşkil etmək, onların fasiləsiz işini təmin etmək, yaşayış məntəqələrinin onların öz hesabına və müqavilələr əsasında elektrikləşdirilməsi, müvafiq ərazidə müəssisələr və təşkilatlar tərəfindən tikilən elektrik şəbəkələri və qurğularının tikintisinə dair rəy vermək səlahiyyəti vardır.

Elektriklə bağlı problemlərlə üzləşən vətəndaşlar həmin şəhər (rayon) üzrə paylayıcı elektrik şəbəkəyə informasiya sorğusu ilə müraciət edib elektrikin tez-tez kəsilməsinin səbəbini öyrənə bilərlər. "Elektrik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında istehlakçıların məsuliyyəti və onlara elektrik enerjisinin verilişinin dayandırılması şərtləri göstərilmişdir. Həmin qərarda göstərilir ki, enerjitəchizatının subyektləri (dövlət elektroenergetika müəssisəsi, müstəqil enerji istehsalçıları, enerjitəchizatı müəssisələri, istehlakçılar, o cümlədən məişət abonentləri) arasında bütün mübahisəli məsələlərlə əlaqədar tərəflər bilavasitə məhkəməyə müraciət etmək hüququna malikdirlər.

## 2. Bankomatların az olması vətəndaşların sosial müavinətlərin vaxtında əldə etməsinə maneçilik yaradır

Problemi göstərməklə yeni bankomatların quraşdırılması üçün Dövlət Sosial Müdafiə Fonduna və ya deputatlara (təcrübədə deputatlar Dövlət Sosial Müdafiə Fondu qarşısında bu cür təkliflə çıxış etmişlər ) imza toplama kampaniyasından istifadə etməklə - təkliflə müraciət etmək olar. Dövlət Sosial Müdafiə Fondunun yerlərdə yeni bankomatların quraşdırılması üçün banklar arasında tender keçirmək səlahiyyəti vardır.

## 3. Gənclərin asudə vaxtının səmərəli keçirilməsinə şəraitin olmaması

***"Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin fərmanında*** göstərilir ki, icra hakimiyyəti başçısının sosial-mədəni, idman və bədən tərbiyəsi təyinatlı obyektlər yaratmaq və onların işini təşkil etmək və yaşayış yerləri üzrə və kütləvi istirahət yerlərində bədən tərbiyəsi və idmanla məşğul olmaq üçün şərait yaratmaq səlahiyyəti vardır.

Vətəndaşlar kitabxanaların, müxtəlif idman növlərinə uyğun klubların fəaliyyət göstərməsi üçün yer və texniki avadanlıqla təmin olunmaq üçün təkliflə İcra Hakimiyyətinə müraciət edə bilərlər. Eyni zamanda vətəndaşlar vətəndaş icmaları vasitəsilə könüllü ianələr hesabına da gənclərin asudə vaxtlarının səmərəli keçirilmsi üçün şərait yarada bilərlər.

## 4. İctimai nəqliyyat problemi

***“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası qanununda*** göstərilir ki, bələdiyyələrin həyata keçirdiyi yerli sosial müdafiə və sosial inkişaf proqramları yerli nəqliyyat və rabitə xidmətinin təşkili və digər sahələri əhatə edə bilər.

Əhalinin ictimai nəqliyyata olan tələbatını tam yerinə yetirmək məqsədi ilə, sərnişindaşıma fəaliyyətinə digər hüquqi və fiziki şəxslərin sahibkarlıq qaydasında cəlb olunması üçün vətəndaşlar Bakı şəhəri üzrə Bakı Sərnişin Nəqliyyat MMC-yə və digər şəhərlərdə (rayon) həmin şəhər (rayon) üzrə

fəaliyyət göstərən Regional Nəqliyyat MMC-lərə təkliflə müraciət edə bilərlər. İctimai nəqliyyatla bağlı problemlərlə əlaqədar vətəndaşlar Nəqliyyat Nazirliyinin "qaynar xətt"inə (567-85-21) və ya həmin şəhər (rayon) üzrə fəaliyyət göstərən Regional Nəqliyyat MMC-yə müraciət edə bilərlər.

## 5. Sosial yardımların alınmasında yaranan çətinliklər

***Kimlər sosial yardım ala bilərlər?***

*Aztəminatlı ailə* -orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailələrdirlər.

***Qeyd: 2012-ci il üçün ehtiyac meyarının səviyyəsi 84 manatdır.***

Ailənin aztəminatlı ailə olub-olmamasını bilmək üçün həmin ailənin orta aylıq gəliri ailə üzvlərinin sayına bölünür, cavab 84-dən azdırsa, bu ailə aztəminatlı ailə hesab olunur. *Məsələn,* 4 nəfərdən ibarət olan ailənin aylıq gəliri 200 manatdırsa, 200-ü 4-ə (ailə üzvlərinin sayına) bölmək lazımdır, cavab 50 alınır. Deməli, bu ailə aztəminatlı ailə hesab olunur.

***Sosial yardımın almaq üçün hara müraciət etmək lazımdır?***

Sosial yardım almaq üçün yaşayış yeri üzrə həmin rayonda fəaliyyət göstərən Əhalinin Sosial Müdafiəsi Mərkəzinə müraciət etmək lazımdır.

***Sosial yardım necə hesablanır?***

Sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır. *Məsələn,* hesab edək ki, ailə 6 nəfərdən ibarətdir və ailəyə bir ay ərzində gələn gəlir 250 manatdır. Bir nəfər üçün ehtiyac meyarı 84 manat olduğundan, 6 nəfər üçün bu, bu məbləğ 504 manata bərabərdir. Bu o deməkdir ki, əslində 6 nəfərdən ibarət olan ailənin orta aylıq gəliri minimum 504 manat olmalıdır. Bu ailə üçün sosial yardımın məbləğini hesablamaq üçün biz 504 manatdan ailənin aylıq gəlirini(250 manat) çıxırıq, cavab 254 manat. Deməli, ailəyə hər ay 254 manat sosial yardım təyin olunmalıdır.

***Sosial yardımın təyin olunması müddəti***

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə təyin olunur. Aztəminatlı ailə sosial yardım almaq üçün bir ildən sonra yenidən müraciət edə bilər.

***Kimlər sosial yardımın təyin olunması zamanı ailə tərkibində nəzərə alınmır?***

1) tam dövlət təminatında olan şəxslər (uşaq evi və internatlarda, qocalar , əlillər və ya sağlamlıq imkanları
2) məhdud uşaqlar üçün internat evlərində, xüsusi təhsil müəssisələrində yaşayan şəxslər);
3) müddətli həqiqi hərbi xidmətdə olan şəxslər;
4) cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər;
5) axtarışda olan şəxslər;
6) Azərbaycan Respublikasının ərazisində yaşamayan Azərbaycan Respublikası vətəndaşları;
7) əcnəbilər (Azərbaycan Respublikasının ərazisində daimi yaşayanlar istisna olmaqla).

***Sosial yardım almaq hüququna yenidən baxılması***

Sosial yardımın məbləğinin dəyişdirilməsinə və ya verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar baş verdikdə (ailənin tərkibi və ya gəlirləri dəyişdikdə) sosial yardım alan ailə bu barədə Əhalinin Sosial Müdafiəsi Mərkəzinə 7 gün müddətində məlumat verməlidir. Əks halda, həmin ailə 1 il müddətinə sosial yardım almaq hüququnu itirir. Sosial yardımın verilməsinə təsir edəcək hallar barədə zəruri məlumatların verilməməsi, yaxud ailə tərkibi və ailə üzvlərinin gəlirləri barədə düzgün olmayan

məlumatların verilməsi səbəbindən artıq yardım ödənildiyi hallarda, sosial yardım alan ailə artıq ödənilmiş yardımın məbləğini könüllü qaydada qaytarmalıdır, bundan imtina edilərsə, bu barədə mübahisəyə məhkəmə qaydasında baxılır.

***Qeyd: Vətəndaşlara sosial yardım plastik bank kartları vasitəsilə ödənilir. Həmin kartların pin kodunu həmin vətəndaşdan başqa kimsə bilməməlidir və kart vətəndaşda qalmalıdır. Vətəndaşın vəzifəli şəxslərin qanunsuz hərəkətlərindən məhkəməyə şikayət etmək hüququ vardır.***

## 6. Məişət tullantılarının vaxtlı-vaxtında yığılmaması

***"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası qanununda*** göstərilir ki, bələdiyyələrin həyata keçirdiyi yerli ekoloji proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması, məişət tullantılarının toplanması və emalı, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.

***"Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin fərmanında*** göstərilir ki, icra hakimiyyəti başçısının məişət tullantılarının yığılması, nəql edilməsi, zərərsizləşdirilməsi və bu sahədə başqa məsələlərin həlli üçün tədbirlər görmək və yaşayış məntəqələrində abadlıq işlərini təşkil etmək, müqavilə əsasında bu işlərin aparılmasına müəssisə, idarə və təşkilatların, habelə əhalinin vəsaitlərini cəlb etmək, istehsalat ərazilərində, abadlıq işlərinin aparılmasına nəzarət etmək, yaşıllaşdırma işini həyata keçirmək, yaşıllıqların qorunmasını, vətəndaşların istirahət yerlərini təşkil etmək səlahiyyəti vardır.

İcra Hakimiyyəti nəzdində fəaliyyət göstərən Mənzil-Kommunal Təsərrüfatı Birliklərinin əsas vəzifələrindən biri həyətyanı sahələrin, küçə və meydançaların sanitar təmizliyini və rayon ərazisində abadlıq işlərini aparmaq, məişət tullantılarının daşınmasını təşkil etməkdən ibarətdir.
Dövlət və ictimai mənzil fondlarına daxil olan evlərdə məişət tullantılarının daşınması və zərərsizləşdirilməsinə görə əhalidən heç bir xidmət haqqı tutulmur.

## 7. Kanalizasiya sisteminin olmaması

***"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası qanununda*** göstərilir ki, bələdiyyələr öz maddi və maliyyə vəsaitlərindən istifadə edilməklə bələdiyyə ərazisinin abadlaşdırılması, əhaliyə kommunal xidmətlər göstərilməsi, sosial infrastruktur obyektlərinin tikintisi və təmiri, müvafiq ərazi əhalisinin məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün zəruri məhsulların istehsalı, xidmətlərin göstərilməsi və digər işlərin görülməsi üçün sifarişçi kimi çıxış edə bilərlər. Həmin qanunda göstərilir ki, bələdiyyələrin həyata keçirdiyi yerli sosial müdafiə və sosial inkişaf proqramları sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı və digər sahələri əhatə edə bilər.

***"Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin fərmanında*** göstərilir ki, icra hakimiyyəti başçısının kanalizasiya şəbəkələrinin və qurğularının istismarını təşkil etmək, onların fasiləsiz işini təmin etmək, müvafiq ərazidə müəssisələr və təşkilatlar tərəfindən tikilən kanalizasiya şəbəkələri və qurğularının tikintisinə dair rəy vermək səlahiyyəti vardır.

Kanalizasiya xətlərinin qurulması işlərini "Azərsu" Açıq Səhmdar Cəmiyyəti həyata keçirir. Yeni kanalizasiya xətlərinin çəkilməsi üçün vətəndaşlar ərazi üzrə şəhər (rayon) su-kanalizasiya idarəsinə müraciət edə bilərlər.

## 8. Yolların bərbad vəziyyətdə olması

***“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası qanununda*** göstərilir ki, bələdiyyələrin həyata keçirdiyi yerli sosial müdafiə və sosial inkişaf proqramları yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması və digər sahələri əhatə edə bilər.

***"Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin fərmanında*** göstərilir ki, icra hakimiyyəti başçısının dövlət mülkiyyətində olan mənzil fondunun, kommunal və yol təsərrüfatının istismarını və müvafiq surətdə idarə olunmasını təşkil etmək, müvafiq sahədə fəaliyyət göstərən müəssisələrin fəaliyyətinə nəzarəti həyata keçirmək səlahiyyəti vardır.

“Azəryolservis” ASC nəzdində fəaliyyət göstərən yol-istismar idarələri avtomobil yollarının tikilməsini və bərpasını aparır. Yerli əhəmiyyətli yolların tikilməsi və bərpası üçün vətəndaşlar ərazi üzrə icra hakimiyyətinə müraciət edə bilərlər. Eyni zamanda bələdiyyələr öz vəsaiti və vətəndaşların könüllü ianələri hesabına yolların tikilməsini və bərpasını aparmaq səlahiyyətinə malikdir.

## 9. Yaşayış binalarının istilik və qazla təmin olunmaması

***“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası qanununda*** göstərilir ki, bələdiyyələrin həyata keçirdiyi yerli sosial müdafiə və sosial inkişaf proqramları yanacaq təchizinin və satışının təşkili və digər sahələri əhatə edə bilər.

***"Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin təsdiq edilməsi barəsində" Azərbaycan Respublikası Prezidentinin fərmanında*** göstərilir ki, icra hakimiyyəti başçısının elektrik, istilik və qaz şəbəkələrinin və qurğularının istismarını təşkil etmək, ***onların fasiləsiz işini təmin etmək,*** yaşayış məntəqələrinin onların öz hesabına və müqavilələr əsasında elektrikləşdirilməsi, qaz və su ilə təchizatı məsələlərini həll etmək, müvafiq ərazidə müəssisələr və təşkilatlar tərəfindən tikilən istilik və qaz şəbəkələri və qurğularının tikintisinə dair rəy vermək, əhalinin yanacaqla təmin olunması üçün tədbirlər görmək səlahiyyəti vardır.

2009-2013-cü il üçün “Regionların sosial-iqtisadi inkişaf proqramı” bütün rayonları əhatə edir və orda həmçinin, sosial-iqtisadi infrastrukturun yaxşılaşdırılması üzrə kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Qaz xətlərinin çəkilişi “Azəriqaz” İstehsalat Birliyi tərəfindən həyata keçirilir. Əhali yeni qaz xətlərinin çəkilişi üçün ərazi üzrə (şəhər) rayon qaz-istismar idarələrinə müraciət edə bilərlər.

***Qeyd: Qaz xətlərinin çəkilişi zamanı mənzildaxili borular vətəndaşların hesabına çəkilir.***

İstilik təchizat idarələrinin əsas vəzifələrindən biri istilik qazanxanaları tikmək, qazanxanalarda, istilik məntəqələrində təmir işləri aparmaq, yaşayış binalarını istilik sistemləri ilə təmin etmək, mərkəzləşdirilmiş (mənzilə qədər) istilik xəttini çəkməkdən ibarətdir. Vətəndaşlar istilik sistemi problemi ilə üzləşəndə ərazi üzrə şəhər (rayon) istilik təchizat idarələrinə müraciət etməlidirlər.

***Qeyd: Yaşayış binaları daxilində istilik sistemlərini təmir etmək- binadaxili istilik xətlərini çəkib mərkəzləşdirilmiş istilik xətlərinə qoşmaq istehlakçının vəzifəsidir.***

Həmçinin, vətəndaşlar yaşayış binalarının istilik təchizatı ilə bağlı problemlərlərlə əlaqədar “Azəristiliktəchizat” ASC-nin (012) 579-52-98 və (012) 480-25-08 nömrələrinə zəng vurmaqla müraciət edə bilərlər.

# V. Əlavələr

## *Əlavə- 1- Şikayət forması*

______________________________
(gün, ay , il)

1.____________________________________________________________
(şikayət edən şəxsin adı, atasının adı, soyadı)

____________________________________________________________
(yaşayış ünvanı)

____________________________________________________________
(telefon və ya email)

2. ____________________________________________________________
(hərəkətindən şikayət olunan şəxsin adı, atasının adı, soyadı)

____________________________________________________________
(yaşayış ünvanı)

____________________________________________________________
(telefon və email(varsa))

Şikayətin məzmunu:______________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

____________________________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

____________________________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

____________________________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

____________________________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

____________________________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

____________________________________________________________
(hadisəni təfsilatıyla və şəxsin yol verdiyi nöqsanlar barədə ətraflı yazın yazın)

Hansı hüquqlarınız pozulub:________________________________________
(pozulmuş hüquqlarınızın haqqında məlumat verin)

____________________________________________________________
(pozulmuş hüquqlarınızın haqqında məlumat verin)

____________________________________________________________
(pozulmuş hüquqlarınızın haqqında məlumat verin)

____________________________________________________________
(pozulmuş hüquqlarınızın haqqında məlumat verin)

____________________________________________________________
(pozulmuş hüquqlarınızın haqqında məlumat verin)

Əsaslandırma:____________________________________________________________________________________

(qeyri-qanuni fəaliyyəti təsdiqləyən dəlilləri göstərməklə əsaslandırın)

____________________________________________________________________________________

(qeyri-qanuni fəaliyyəti təsdiqləyən dəlilləri göstərməklə əsaslandırın)

____________________________________________________________________________________

(qeyri-qanuni fəaliyyəti təsdiqləyən dəlilləri göstərməklə əsaslandırın)

____________________________________________________________________________________

(qeyri-qanuni fəaliyyəti təsdiqləyən dəlilləri göstərməklə əsaslandırın)

____________________________________________________________________________________

(qeyri-qanuni fəaliyyəti təsdiqləyən dəlilləri göstərməklə əsaslandırın)

Tələb:____________________________________________________________________________________

(pozulmuş hüquqlarınızın bərpasını tələb edin)

____________________________________________________________________________________

(pozulmuş hüquqlarınızın bərpasını tələb edin)

____________________________________________________________________________________

(pozulmuş hüquqlarınızın bərpasını tələb edin)

____________________________________________________________________________________

(pozulmuş hüquqlarınızın bərpasını tələb edin)

____________________________________________________________________________________

(pozulmuş hüquqlarınızın bərpasını tələb edin)

____________________________________________________________________________________

(pozulmuş hüquqlarınızın bərpasını tələb edin)

____________________ ______________________________

(imza) (ad, soyad, ata adı)

## *Əlavə- 2 - İmza vərəqəsi forması*

"______" ____________________ __________ il

____________________________________________________________________________

(müraciətin ünvanlandığı dövlət orqanının adı, bu orqanın rəhbərliyində çalışan şəxsin vəzifəsi, adı və soyadı)

Biz, aşağıda imza edənlər,

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

____________________________________________________________________________

(qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir)

| Sıra nömrəsi | İmza edən vətəndaşın soyadı, adı, atasının adı | Doğulduğu il, ay və gün | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi, verilmə tarixi | İmza və onun qoyulduğu tarix |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

İmza vərəqəsini təsdiq edirəm ________________________________________________________

(imza toplamış şəxsin soyadı, adı, atasının adı)

____________________________________________________________________________

(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi, verilmə tarixi)

____________________________ ____________________________

(imza) (gün, ay, il)

*Əlavə-3 - İnformasiya sorğusu forması*

________________________________
(gün, ay , il)

**Sorğu göndərən şəxsin adı, soyadı, atasının adı:**
**Yaşayış yeri və ya iş yeri:**
**Tel:**

____________________________________________
(informasiya sorğusu göndərilən orqanın adı)

**SORĞU**

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

____________________________________________________________
Soruşulan bilginin məzmunu, yaxud sənədin növü və ya adı, sənədin sorğuçuya bəlli olan rekvizitləri

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq sorğuda qeyd edilən bilgilərin yazılı surətdə verilməsini təmin etməyinizi xahiş edirəm.

**Hörmətlə,** ____________________ ________________________________
(imza) (ad, soyad, ata adı)